# AQRAR SAHƏDƏ DÖVLƏT DƏSTƏYİNİN ZƏRURİLİYİNİN İQTİSADİ ƏSASLANDIRILMASI



**Qurban Bayramov,**
*Azərbaycan Dövlət Aqrar Universitetinin*
*Aqrobiznes, menecment və marketinq kafedrasının doktorantı*
*e-mail: gurbanbay2001@gmail.com*
*https://doi.org/10.30546/2706-7858.2026.09.3.348*

**UOT:** 332
**Xülasə.** *Kənd təsərrüfatının spesifik xüsusiyyətləri, xüsusilə istehsalın təbii-iqlim xüsusiyyətlərindən asılılığı, istehsalın mövsümlülüyü, aşağı gəlirlilik səviyyəsi bu mühüm iqtisadi fəaliyyət sahəsinin investorlar üçün cəlbediciliyini ciddi şəkildə azaldır. Eyni zamanda iqtisadiyyatın digər sahələrinə nisbətən kənd təsərrüfatının ləng inkişafı ayrı-ayrı istehsal sahələrinə dövlət dəstəyinin həyata keçirilməsini tələb edir. Bununla əlaqədar olaraq kənd yerlərinin davamlı inkişafı üçün əlverişli şəraitin yaradılması və kənd təsərrüfatı məhsullarının artım tempinin sürətləndirilməsi ilə rəqabətqabiliyyətli istehsalın təmin edilməsi aqrar sahəyə dəstək siyasətinin prioritetlərinə çevrilmişdir.*

***Açar sözlər:*** *dövlət dəstəyi, stimullaşdırma, subsidiya, investisiya, səmərə.*
***Keywords:*** *state support, incentives, subsidies, investment, efficiency.*
***Ключевые слова:*** *государственная поддержка, стимулирование, субсидии, инвестиции, эффективность.*

Aqrar iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi çərçivəsində dövlət dəstəyinin kənd təsərrüfatı məhsulları istehsalçıları arasında bölüşdürülməsi hazırda xüsusi aktuallıq kəsb edən məsələlərdən hesab olunur. Bu baxımdan kənd təsərrüfatına dövlət dəstəyi sisteminin təkmilləşdirilməsi vasitələrinin hazırlanması zərurəti elmi və iqtisadi cəhətdən əsaslandırılmanı önə çəkir. Təcrübədə kənd təsərrüfatının dayanıqlı iqtisadi inkişaf tələblərinə cavab verən dövlət dəstəyi prinsipləri sisteminin formalaşdırılması dövlət dəstəyinin, onun sahə və regional səviyyələrdə bölüşdürülməsi formalarının təkmilləşdirilməsinə və stimullaşdırılmasının effektivliyinə istiqamətlənir [1, s.27].

Kənd təsərrüfatına dövlət dəstəyi əksər ölkələrdə aqrar sahənin səmərəli fəaliyyət göstərməsi üçün ən mühüm şərt kimi qəbul edilir. Araşdırmalar göstərir ki, kənd təsərrüfatına maliyyə dəstəyinin göstərilməsi məhsul istehsalının artımında müsbət tendensiya yaradır [2, s.71]. Bu isə öz növbəsində istehsal proseslərinin dövlət tərəfindən stimullaşdırılmasının transformasiyasına müsbət təsir göstərir. Təsadüfi deyildir ki, “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamında “kənd təsərrüfatı məhsulları istehsalının səmərəsini artırmaq və həmin məhsulların istehsalçılarına dövlət tərəfindən maliyyə yardımının göstərilməsini təmin etmək” [3] məsələləri öz əksini tapır. “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin fərmanı isə “aqrar sahədə tətbiq edilən dəstək tədbirləri ilə bağlı yeni mexanizmin

formalaşdırılması, büdcə vəsaitlərindən səmərəli istifadənin təmin edilməsi" [4] kimi mühüm məsələləri ehtiva edir. Qeyd etmək lazımdır ki, dövlət dəstəyinin istiqamətlərini müəyyən edən belə sənədlər bir sıra prioritetləri, o cümlədən innovasiyaların inkişafını, yayılması və istehsalata tətbiqini, istehsal sahələrinin investisiya cəlbediciliyinin artırılmasını, maddi-texniki təchizat səviyyəsinin yüksəldilməsini, investisiyalardan istifadənin səmərəliliyinin artırılmasını və s. təmin edir [5, s.36].

Araşdırmalar göstərir ki, aqrar sahədə yüksək elmi intellektual və təbii potensialın olmasına baxmayaraq, onların reallaşdırılmasında müəyyən çətinliklər mövcuddur və belə vəziyyət, ilk növbədə, dövlət dəstəyi resurslarının bölüşdürülməsində mövcud yanaşmalarla əlaqələndirilir. Eyni zamanda kənd təsərrüfatının mövcud problemləri dövlət idarəetmə sisteminin transformasiyasını aktuallaşdırır. Qeyd edilən istiqamətdə əsas prioritet aqrar sahənin davamlı iqtisadi inkişafı prinsiplərini nəzərə alaraq dövlət dəstəyi resurslarının bölgüsünün elmi əsaslandırılması hesab edilir.

Təhlillər göstərir ki, dövlət dəstəyinin səviyyəsi iqtisadiyyatın digər sahələri və qabaqcıl dünya təcrübələri ilə müqayisədə məhsul vahidinə olan xərclərin xüsusi çəkisinin artması tendensiyası ilə xarakterizə olunur. Belə nəticə kənd təsərrüfatı istehsalçılarına subsidiya dəstəyinin bölüşdürülməsinin təkmilləşdirilməsi prinsiplərinin və mexanizminin işlənilib hazırlanması zərurətini yaradır. Qeyd etmək lazımdır ki, ayrı-ayrı istehsal sahələrinə subsidiyaların verilməsi 2020-ci ildən etibarən Azərbaycan Respublikası Prezidentinin "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" 2019-cu il 27 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na əsasən tənzimlənir. Bu çərçivədə subsidiyaların verilməsi Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsilə reallaşdırılır. Fərmana uyğun olaraq 2022–2023-cü illərdə əkin sahəsi və çoxillik əkmələrə görə 257004,53 min manat, təkrar əkinlərə görə 5487,34 min manat, ərzaqlıq buğdaya görə 12538,53 min manat, xam pambığa görə 53774,92 min manat, quru və yaş tütün istehsalına görə 1668,62 min manat, şəkər çuğunduruna görə 3556,45 min manat, toxum və tinglərə görə 6002,3 min manat, süni mayalanma yolu ilə alınmış buzovlara görə 10300 min manat, baramaya görə 2050,57 min manat məbləğində subsidiya verilmişdir [6].

Aqrar sahəyə dövlət dəstəyinin istiqamətlərindən digəri kənd təsərrüfatı məhsulları istehsalçılarına kənd təsərrüfatı texnikası və avadanlıqlarının lizinqlə verilməsi və lizinq yolu ilə satılması hesab edilir. Araşdırmalar göstərir ki, 2019-cu ildə kənd təsərrüfatı istehsalçılarına satılmış və verilmiş maşınların dəyəri 130,6 milyon manat, 2023-ci ildə bu göstərici 70,4 faiz azalaraq 38,6 milyon manat təşkil etmişdir.

Aqrar sahəyə dövlət dəstəyinin istiqamətlərindən biri də güzəştli kreditlərin tətbiqi ilə müxtəlif kreditlərə istehsalçıların əlçatanlığının təmin edilməsidir. Bu baxımdan beynəlxalq təcrübə əsasında aqrar sahənin kreditləşdirilməsi mexanizmində dövlətin iştirakı, eləcə də dövlət tərəfindən həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasında yeni yanaşmaların işlənilib hazırlanması xüsusi aktuallıq kəsb edir. Hazırda aqrar sahənin kreditləşdirilməsi vəziyyəti göstərir ki, 2019-cu ildə kənd təsərrüfatı məhsullarının istehsalı üzrə 96,3 milyon manat həcmində 1450 layihə, 2020-ci ildə 56,5 milyon manat həcmində 824 layihə, 2021-ci ildə 67,6 milyon manat həcmində 1774 layihə həyata keçirilmiş, 2022-ci ildə ildə 87,1 milyon manat həcmində, 2023-cü ildə isə 90 milyon manat həcmində güzəştli kredit verilmişdir. Güzəştli kreditlərin 2019-cu ildə 55,1 faizi, 2023-cü ildə isə 46,4 faizi kənd təsərrüfatı məhsullarının istehsalına yönəldilmişdir. 2019-cu illə müqayisədə 2023-cü ildə kənd təsərrüfatı məhsulları istehsalına verilən güzəştli kreditlərin həcmi 6,5 faiz azalmışdır *(qrafik).*




***Qrafik. Sahibkarlığın İnkişafı Fondu tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsinə verilmiş güzəştli kreditlər, milyon manatla [7].***

Kənd təsərrüfatı istehsalının mövcud kreditləşdirilməsi sisteminin, kənd təsərrüfatının güzəştli kreditləşdirilməsi sahəsində mövcud qa-

nunvericiliyin təhlili, eləcə də verilən kreditlərin həcmi və iqtisadi fəaliyyətin nəticələri ilə əlaqədar onların faiz dərəcələrinin tədqiqi göstərir ki, bu sahədə müəyyən problemlər mövcuddur. Nəticədə bu istiqamətdə əməliyyatların səmərəliliyinin aşağı olması, eləcə də kreditlər üzrə borcların daim artması kənd təsərrüfatı müəssisələrinin kredit qabiliyyətini aşağı salır, onlara kredit bazarının verdiyi imkanlardan tam istifadə etməyə imkan vermir.

Yekun olaraq onu da qeyd etmək lazımdır ki, güzəştli kreditləşdirmə mexanizmi daha da təkmilləşdirilməni tələb edir və kənd təsərrüfatı istehsalçılarının maliyyə vəziyyətinin sabitliyini qorumaq üçün subsidiya limitlərinə yuxarıya doğru yenidən baxılması vacibdir. Bununla yanaşı, kənd təsərrüfatı istehsalçılarının dövlət tənzimlənməsinin maliyyə alətlərinin təkmilləşdirilməsinin gələcək istiqamətləri rəqəmsal platformaların inkişafı da daxil olmaqla, bank kreditləşməsinə alternativ alətlərin axtarışı hesab edilə bilər.

**Alınan nəticələrin tətbiqi.** İqtisadi ədəbiyyatda kənd təsərrüfatına dövlət dəstəyi proqramı çərçivəsində regional məqsədli proqramlar şəklində institusional və regional metodlar fərqləndirilir. İnteqrasiya edilmiş yanaşmada təşkilati, maliyyə və institusional kimi üsullar fərqləndirilir. İnteqrativ yanaşma çərçivəsində dövlət dəstəyinin risklərin sığortası sistemi, informasiya və məsləhət xidməti dəstəyi, dövlət-özəl tərəfdaşlığı, birbaşa xarici investisiyalar kimi formaları üstünlük təşkil edir. İdarəetmə yanaşmasına görə dövlət dəstəyinin təşkilati, infrastruktur və institusional üsulları normativ-hüquqi aktların hazırlanması, innovativ layihələrin müsabiqə yolu ilə müəyyən edilməsi formaları fərqləndirilir. Dövlət dəstəyinin klaster yanaşması formasında həyata keçirilməsi üsullarına struktur, sistemli, qiymətləndirici, infrastruktur, institusional formalarına isə fundamental elmin inkişafına dəstək daxildir [8, s.23].

Beləliklə, dövlət dəstəyi təşkilati, idarəetmə və maliyyə-iqtisadi formalar kompleksi olan kənd təsərrüfatında investisiya və innovasiya fəaliyyətinin dövlət tərəfindən stimullaşdırılmasının əsas istiqamətləri kimi müəyyən edilir [9, s.19]. Aqrar sahənin dayanıqlı iqtisadi artım istiqamətlərinə cavab verən kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyi prinsipləri sistemi aşağıdakıları özündə əks etdirir:

• ***Səmərəlilik prinsipi*** dövlət dəstəyinin həcminin optimallaşdırılmasını, kənd təsərrüfatı istehsalının həcminin maksimuma çatdırılmasını və kəndin inkişafının sosial göstəricilərinə nail olunmasının təmin edilməsini nəzərdə tutur.

• ***İnnovativ inkişaf prinsipi*** kənd təsərrüfatının qabaqcıl elmi nailiyyətlərə əsaslanaraq sürətli inkişafının təmin edilməsini ehtiva edir. Hazırda dövlət dəstəyinin həcmlərində və mexanizmlərində müsbət dəyişikliklər edilməklə yüksək tenologiyalı məhsulları elit toxumların, bitki mühafizə vasitələrinin, baytarlıq preparatlarının, yem əlavələrinin idxalından yüksək dərəcədə asılılıq azaldılmışdır.

• ***Subsidiya dəstəyinin elmi cəhətdən əsaslandırılması prinsipi*** qoyulmuş vəsaitin hər manatına görə maksimum gəlir əldə etməyə imkan verən kənd təsərrüfatı istehsalında qabaqcıl texnologiyaların tətbiqini nəzərdə tutur.

• ***Kompleks subsidiya dəstəyi prinsipi*** yeni texnologiyaların əldə edilməsinin maliyyələşdirilməsi ilə yanaşı, kənd təsərrüfatı istehsalı üçün zəruri infrastrukturun yaradılmasını ehtiva edir.

• ***Subsidiya dəstəyinin diferensial bölgüsü prinsipi*** kənd təsərrüfatı istehsalçılarına prioritet dəstəyin və multiplikator effektinin təmin edilməsini xarakterizə edir. Dövlət dəstəyi investisiya qoyuluşlarının qaytarılma müddəti, istehsalın coğrafi yerləşməsi və təbii-iqlim şəraiti, ərazilərin mövcud bioiqlim potensialı, istehsal olunan məhsulların növü, istehsal sahəsinin rentabelliyi, logistika mərkəzlərinə olan məsafə nəzərə alınmaqla diferensiallaşdırılır.

• ***Büdcə dəstəyinin şəffaflığı prinsipi*** yardımçı dəstəyin məbləğini göstərən reyestrin tərtib edilməsi və bu məlumatlara açıq çıxış imkanının təmin edilməsi ilə özünü göstərir.

• ***Obyektivlik prinsipi*** istehsal innovasiyası göstəricilərinin, ərazinin bioiqlim potensialının inkişaf səviyyəsinin, istehsal sahələrinin prioritetliyi və rentabelliyinin, habelə kənd yerlərinin sosial-iqtisadi inkişafının nəzərdə tutulan göstəricilərinə nail olunması nəzərə alınmaqla dövlət dəstəyinin səmərəliliyinin qiymətləndirilməsi metodologiyasının təkmilləşdirilməsini əks etdirir.

Qeyd edilənlərdən aydın olur ki, "hazırda kənd təsərrüfatı istehsalının dayanıqlığının təmin olunması və bütövlükdə aqrar sferanın inkişafı üçün səmərəli mexanizmlərin hazırlanması" [10, s.37] vacibdir.

**Nəticə.** Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyinin prinsipləri əsasında aqrar sahəyə dövlət dəstəyinin təkmilləşdirilməsi üzrə müvafiq tədbirlər hazırlamaq mümkündür. Təcrübədə dövlət dəstəyinin aşağıdakı forma-

larına üstünlük verilir: *normativ-hüquqi aktların hazırlanması və təkmilləşdirilməsi; maliyyələşdirmə və subsidiyaların verilməsi; regional hədəf proqramlarının hazırlanması; qrantlar və subsidiyaların müəyyən edilməsi; dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi; biznes infrastrukturunun inkişafına yardımların göstərilməsi; fundamental aqrar elmə dəstəyin həyata keçirilməsi; ixtisaslı kadrların hazırlanması; innovativ layihələrin rəqabətli seçiminin təmin edilməsi; kreditlərin subsidiyalaşdırılması; risk sığortası sisteminin inkişaf etdirilməsi; birbaşa xarici investisiyaların cəlb edilməsinə zəruri şəraitin yaradılması; innovasiyaların tətbiqi üçün göstəricilər sisteminin işlənilib hazırlanması və s.* Beləliklə, qeyd edilən istiqamətlər əsasında kənd təsərrüfatında dövlət dəstəyinin təkmilləşdirilməsi, onun sahələr və regional səviyyələrdə səmərəli şəkildə bölüşdürülməsi, kənd təsərrüfatı istehsalında əldə edilmiş innovasiya səviyyəsi nəzərə alınmaqla subsidiyaların dəstəklənməsi və stimullaşdırılmasının səmərəliliyinin yüksəldilməsi üzrə tədbirlərin işlənilib hazırlanması mümkündür.

## İstifadə edilmiş ədəbiyyat

1. Афанасьев М.Б. Методы государственной поддержки сельского хозяйства в Европейском союзе. “Экономика сельского хозяйства”, 2016, №1. с.26-31.

2. Гончаренко Л.И., Тихонова А.В. и др. Финансовая поддержка аграрного сектора экономики как фактор обеспечения импортозамещения и продовольственной безопасности (монография). Издательство: КноРус, 2018, 205 с.

3. “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin 23 yanvar 2007-ci il tarixli Sərəncamı.

4. “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 27 iyun 2019-cu il tarixli Fərmanı.

5. Alıyev İ.H., Soltanlı İ.Q. Aqrar sahənin modernləşdirilməsi və rəqabət qabiliyyətliliyinin təmin olunması problemləri. Bakı, “Avropa” nəşriyyatı, 2017, 428 s.

6. https://www.agro.gov.az/az

7. https://edf.gov.az/az/content/22

8. Qurbanzadə A.A. XXI əsr: dayanıqlı inkişafın aqrar-sənaye klaster faktoru (monoqrafiya). Bakı, “Kooperasiya” nəşriyyatı, 2015, 216 s.

9. Адуков Р.Х., Адукова А.Н. Необходимость стимулирования гармоничного развития отраслей сельского хозяйства. “Журнал Экономика сельского хозяйства России”, 2020, №1, с.18-22.

10. Əmrahov V. Aqrar sferada istehsal potensialından istifadə səviyyəsinin qiymətləndirilməsi. “Kənd təsərrüfatı iqtisadiyyatı” jurnalı, 2020, №2 (32), s. 36.

**G.Bayramov**

## Economic justification for the necessity of state support in the agricultural sector

**Abstract**

The specific characteristics of agriculture, in particular the dependence of production processes on natural and climatic conditions, pronounced seasonality, and low profitability, significantly reduce the investment attractiveness of this important sector of economic activity. At the same time, compared to other sectors of the economy, the slow pace of development of the agricultural sector necessitates targeted state intervention and support for specific areas of agricultural production. In this context, creating favorable conditions for the sustainable development of rural areas and accelerating the growth of agricultural production to ensure its competitiveness are key priorities of state policy to support the agricultural sector.

**Г.Байрамов**

## Экономическое обоснование необходимости государственной поддержки в аграрной сфере

**Аннотация**

Специфические особенности сельского хозяйства, в частности зависимость производственных процессов от природно-климатических условий, выраженная сезонность и низкий уровень рентабельности, существенно снижают инвестиционную привлекательность этой важной сферы экономической деятельности. В то же время, по сравнению с другими отраслями экономики, медленные темпы развития аграрного сектора обуславливают необходимость целенаправленного государственного вмешательства и поддержки отдельных направлений сельскохозяйственного производства. В этом контексте формирование благоприятных условий для устойчивого развития сельских территорий, а также ускорение темпов роста выпуска сельскохозяйственной продукции с целью обеспечения её конкурентоспособности становятся ключевыми приоритетами государственной политики поддержки аграрной отрасли.